

Qəşəm İsabəyli

# Son görüş

*Hekayə*

İyirmi yeddi ildən sonra evimizə gedirdim. Yol asfalt, maşın "Mersedes", özümüz də ahıl...- əmioğluyla mən. Tiflisdən Qazağa qayıdanda kəndimiz yadıma düşmüşdü.

-Ay İsmayıl.

-Hə?

-Maşının ağzını çevir Körpülüyə.

-Nə danışırsan?!

-Vallah!

-Bilirsən, Körpülü indi Ermənistandı?!

-Olsun da.

Quş kimi uçurduq. Bir azdan yol məni yuxu kimi necə tutmuşdusa, iyirmi yeddi il sənə zarafat gəlməsin, hər şey yadımdan çıxa-çıxdaydı, anam gəlib durmuşdu gözlərimin qabağında - eyvanda bardaşqurma oturub, bir yandan fətir kəsir, bir yandan islağa qoyduğu qurutu ələyir, hərdən qazanda bişən çolpa çığırtmasını qarışdırıb, tez-tez də yola boylanırdı. Haçan kəndə qayıtsaydım, mütləq xəngəl bişirərdi. Son dəfə, artıq əllərini əsməcə tutmuşdu, hiss eləyirdim ki, səbri də azalıb, xörəyi bir az quru çıxmışdı:

-Ay ana... - səsimin tonundan fikrimi tutmuşdu:

-Ay Şəmi, maşallah, otuzu keçmisən ey, günahı o yan-bu yanda axtarma!

-Deyirsən, ağzımın dadı qaçıb?!

-Özün dedin ki!

-O boyda yox da, ay ana.

-Qağan canı, tələsidim, qazanın dibi çaldı. Hələ bir həftə yanımdasan, o qədər xəngəl bişirəcəm, bezəcəksən!

Əsgərliyə getdiyim gün də elə bil dünən olmuşdu. Halbu ki, üstündən nə az, nə azacıq, düz 50 il ötürdü.

-İraq səndən, ay bala, atanı ağlaya-ağlaya yola saldım, müharibəyə gedirdi, hələ də gözləyirəm. Sənin əsgərliyin-dən arxayınam, Allah qoysa, gedərsən, tez də qayıdarsan! Amma özündən muğayat ol, bala, səndən başqa kişi yoxdu evimizdə. - Anam məni kəndimizin ayağınacan ötürüb, durub dalımca baxırdı.

Əsgərlik də bir göz qırpımında gəlib keçdi. Bakı-Qazax avtobusundan yerə atılıb, pay-piyada düşmüşdüm yola. Onda düz-əməlli yol nə gəzirdi, maşın nə gəzirdi. Yarım saat getmişdim-getməmişdim taqqatuk tələkə bir dranqlit dayandı yanımda:

-Ayə, Körpülüyəmi gedirsən?! - Qapını üzümə açıb, sürücü bağırdı.

-Yol aparır. - Zarafat eləmişdim.

-Yo-ox... səni tək buraxmaq olmaz. Allah itələyib salıb qabağıma, naz eləmə!

Bayaq maşına tullanmışdım:

-Yaman dedin, ha!

-Nəyi?

-"Naz eləm"nı!

-Ha... ha... ha... Qardaşoğlu, dədəni tanımıram, canına and içim, öz canım haqqı, Allah boynuma döyə-döyə yolumu burdan saldı ki, qohum-qardaşını tez sevindirəsən. Neçə dəfə sınamışam, xalq nəyə inanıbsa, düz çıxıb. Səhər evdən tərpənəndə bağçamızda qarğa başını yolub tökürdü - qarrr... qarrr... -Bildim ki, xeyirliyədi. Muş-tuluğun mənə çatasıymış.

Bir saatdan doqqazımızın ağzındaydıq:

-Bax, dostluğumuz təzə başlayır, aramız dəyər ha, cırtqozluq eləyib, dalımca atma özünü! Mayamı batırarsan! -Sürücü cəld maşından düşüb, girdi həyətimizə.

-Ay bacı, adam gözləyənə oxşayırsan?!

-İyirmi beş il, üstünə də gəl üç...

-İyirmi səkkiz desənə!

-Onun iyirmi beşini ərimi gözləyirəm, üçünü də oğlumu!

-Ərinə söz verə bilmərəm, yalançı çıxaram, qağam canı, muştuluğumu versən, gedib oğlunu bu dəqiqə gəti-rərəm.

-Canımı da qurban eləyərəm!

-Başımı bişirmə, candan muştuluq olmaz.

Bir də gördüm həyətdəyəm:

-Ana-aa!

-Ayə!..

-Can, bala! - Arvad bağrına basdı məni. -Soldat iyi verən canına atam qurban, anam qurban, canım qurban!

-Ay bacı, qurbanlıqları sonraya saxla, gecəyə salarsan məni! - Sürücü səbrsizlik elədi.

Anam cəld gedib girdi dama. Bir badya dənlə çıxdı.

-Bu nə deyir ə... anan deyəsən, mənə toyuq dəni verəcək?

- Düüt... düt... düt... - Toyuq-cücə, qaz, hinduşka çığırışa-çığırışa qaçıb yığıldı arvadın başına. Əl atıb yekə bir hinduşkanı tutdu. - Bu da sənin şirinliyin!

-Bəs bunun metrikası-zadı yoxdu?!

-Metrika nədi? - Anam təəccüb etdi.

Gülüb, əl atdım cibimə:

- Bu yarıyar?! - Bir onluq uzatdım.

-Day yol polisi saxlaya bilməz məni! - Sürücü pulu cibinə, hinduşkanı da kabinəyə qoydu. - Üç savaba batdın, ay əsgər, həm cibim isindi, həm ürəyim isindi, həm də qulaq yoldaşı verdin mənə. Elə hey fikirləşirdim, tək necə qayıdacam geri. Bu hinduşla evimizəcən söz taparam danışmağa.

-Ay qağa, otursana, bəlkə bir-iki tikə... - sözümü ağzımda qoydu:

-Pisdi xasiyyətim, qardaşoğlu, əllidən-yüzəllidən sonra pulu qaytarıb basacam cibinə, hinduşu da kəsəcəm! Sala-mat qal!

-Yaxşı yol!..

İsmayıl əmoğlu məni fikirdən ayırdı:

-Ay Şəmi, çatırıq ha! - Tini burulub, evimizin damını görəndə ürəyim atlandı:

-Oxay!

Açıq darvazadan həyətə girdik. Əmoğlum maşını saxladı:

-Ay ev yiyəsi!

Tanımadığım bir kişi çıxdı eyvana.

-Bu erməniyə oxşayan kimdi, ə?!

-Aşotdu da, tanımırsan?!

-Nə Aşot!

-Evin sahibi?!

-Bəs anam?!

-Nə ana?! - Heyrətlə üzümə baxdı. - Bura Körpülüdü, ey, əmioğlu!

-Bilirəm də!

-Ananı on beş ildi Bakıda dəfn eləyib, burda gəzirsən.

-Bah! - Əlimi alnıma vurdum. - Səhərdən...

-Düş görək!

-Hara?

-Hara gəlmişik, ora.

-Mənim düşəsi halım yoxdu.

-Nə danışırsan?!

-Əmoğlu, sənin canınçün, Körpülüyə burulandan fikrim anamın yanındadı. Elə bilmişəm onu görməyə gedirəm!

-Xoş gəlmisiniz! - Bir də baxdıq Aşot maşının yanında dayanıb. - Düşsəniz!

-Yox, qayıdacağıq!

-Bəs niyə gəlmişdiniz?!

-Gəldik də.

-İllərdi səni gözləyirəm ki, halallıq alım, ay Şəmistan müəllim.

-Halal xoşun olsun! Nə qədər istəyirsən yaşa! İndən belə biz Ermənistana qayıdan deyilik!

-Ay bala, Çardaxlıda kimdən soruşsan ki, Aşotun evi haradı, deyərlər. Get, onu götür, istəyirsən sat, istəyirsən içində yaşa! Day mənim də Azərbaycana qayıdası halım yoxdu, bir ayağım qəbirdədi, bala.